

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 202 (24.339)

1 noyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.gov.az

Qiymәti 30 qəpik

# Ərazi bütövlüyümüzün Xankəndi zirvəsi

*Ümummilli Liderimizin siyasətinə sadiq Prezident*

***"Azərbaycan heç vaxt öz ərazi bütövlüyümüzün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar".***

Ölkəmizə rəhbərliyi dövründə daim dilə gətirdiyi və qarşısına qoyduğu bu müqəddəs və ali məqsədə dövlət başçısı cənab İlham Əliyev öz prinsipal fəaliyyəti ilə nail oldu. Çoxlarının inana bilmədiyi və bəlkə də, inanmaq istəmədiyi bu məsələ beynəlxalq hüquq normaları çərçivəsində öz həllini tapdı. Bir vaxtlar "Qoy ədalət zəfər çalsın!" prinsipini öz əməli fəaliyyətində nümayiş etdirən Ulu Öndər deyirdi: ***"Mən hesab edirəm ki, əldən gedən torpaqlar nə vaxtsa qaytarılmalıdır. Xalqımız daim bilməlidir ki, bütün tarixi torpaqlarımız hansılar olub-olur, hansılar nə vaxtsa əlimizdən gedibdir, nəyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qaytarılmalıdır. Biz də qaytara bilməsək, gələcək nəsillər bunları qaytaracaqlar".*** Dahi rəhbərin bu inamını əzmlə yaşadan Onun siyasi varisi cənab İlham Əliyev bütün dünyaya göstərdi ki, bu xalq öz soykökünə böyük ehtiramla yanaşır, ata-baba əmanətini ən qiymətli miras hesab edir.

*Zəfərə gedən yol*

2020-ci il sentyabr ayının 27-dən ölkəmiz özünün yeni tarixini yazmağa başladı – silah və qanla... Bu, şərəfli bir tarix oldu – illər boyu çörəyimizin artığı ilə böyüyən, əsil-kökü bilinməyən erməni vandalizmi üzərində qazanılan ləyaqət və şərəf tarixi. Müstəqil Azərbaycanın müzəffər Ordusu 30 il işğal altında olan yurd yerlərimizin bir çoxunda üçrəngli bayrağımızı qaldırdı, böyük strateji əhəmiyyətə malik olan yüksəkliklərimizi geri aldı, düşmənin milyonlarla ölçülə bilən zirehli texnikasını, döyüş silah və sursatını sıradan çıxardı. Bu prosesin həcmi genişləndikcə, coğrafiyası daha böyük miqyas aldıqca "Torpaq, uğrunda ölən varsa, Vətəndir!" – deyib düşmən üzərinə qartal kimi şığıyan qəhrəman oğullarımız neçə illər bizi ürəyimizdə qaysaq bağlayan arzuya qovuşdurdu. Onlar torpaqdan güc alan oğullar idi.

Adıçəkilən müharibənin hər bir günü geri alınmış yurd yerlərimizdə Azərbaycan Bayrağının qaldırılması ilə bağlı ölkə başçısı cənab İlham Əliyev xalqa böyük sevinc hissi ilə müjdə verməsi tariximizin səhifələrinə qızıl hərflərlə yazıldı. Qarşıda xunta yuvasına çevrilmiş Xankəndi və keçmiş Dağlıq Qarabağın tərkibində olan rayonlar var idi.

Bir qədər sonra, daha dəqiq desək, 2023-cü ilin oktyabr ayının 15-də ölkə başçısının Xankəndi şəhərində Dövlət Bayrağımızı ucaltdığı ərazidə dediyi ***"Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim… Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda öz ləyaqətimizi bərpa etmişik… Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar!"*** fikirləri Azərbaycan Prezidentinin qətiyyətini və verdiyi sözə sədaqətini, dədə-baba əmanətinə sevgisini ortaya qoydu.

*İkinci Qarabağ müharibəsi dövründə*

Ölkə başçısının Fransanın "Figaro" qəzetinə, "Fox News", ADR-nin televiziya kanalına, "BBC News"a verdiyi müsahibələr yada düşür. Bu müsahibələri xatırlayanlar da təsdiq edərlər ki, müsahibə alanların ölkə başçımıza ünvanladıqları sualların hamısı sanki bir nəfər tərəfindən hazırlanmışdı. Həmin sualların arxasında hansı məkrli məqsəd və niyyətlərin dayandığını da hiss etmək çətin deyildi. Ancaq cənab İlham Əliyevin cavabları ilə elə ilk anlardan onlara bəlli olurdu ki, kiminlə danışırlar. Cavabların leytmotivini belə ümumiləşdirmək olar: Həyatda dəfələrlə sınaqdan çıxmış bir həqiqət var: İnsanlar nədən qorxurlarsa, o təhlükəyə əvvəlcədən hazırlıq görürlər.



Elə buna görə də bu mənfur "zavallıların" özlərinə havadar axtarmaq cəhdləri, həmin havadarlar qarşısında müxtəlif donlara girmələri illərin reallığıdır. Əsasən, Avropaya üz tutan ermənilər öz inadlarından əl çəkməyərək müəyyən mənada istədiklərinə nail ola biliblər. Tərtib etdikləri xüsusi proqram bu yolda onların "köməyinə yetib". Nə olursa-olsun, ancaq istədiklərinə çatmaq arzuları ilə hər bir rəzalətə qol qoyublar ki, bu da ancaq ermənilərə məxsus "keyfiyyətlərdəndir". Məsələ isə ondadır ki, özlərinə layiqli havadarlar tapdıqdan sonra onların ərazi iddiaları başlayır. Bu iddialar içərisində qədim tarixə malik Azərbaycan torpaqları öndə durur.

Ermənilərin öz havadarları ilə birlikdə yeritdikləri mənfur siyasət tarixi həqiqətlər fonunda çox dəqiq görünür. 1920-ci ildən 1988-ci ilə qədər azərbaycanlılara qarşı ən böyük tarixi ədalətsizlik olan deportasiyalarında, bu deportasiyalar nəticəsində boşaldılmış Qərbi Azərbaycan torpaqlarında ermənilərin at oynatması, tarixi adlarımızın erməniləşdirilməsində, 1930-40-cı illərdə respublikaların kosmik səviyyəyə qalxmasında bu mənfur daşnak tör-töküntülərinin məqsədyönlü fəaliyyəti bu gün hər birimizə aydındır.

Ermənilərin Azərbaycana dövlət səviyyəsində 80-ci illərdən başlayaraq davam edən təcavüzü keçmiş imperiyanın başında durmuş ermənipərəst başçıların birtərəfli və ya düşünülmüş siyasəti idi ki, bu gün o arzular puça çıxıb. Dəfələrlə ölkə Prezidentinin ən yüksək tribunalardan ermənilik xəstəliyinə mübtəla olmuşlara 20 il ərzində dedikləri cənab İlham Əliyevin siyasət aləmində özünü təsdiqi və xalqı qarşısında ən böyük xidmətlərinin bir hissəsidir.

*Ərazi bütövlüyümüzün Xankəndi zirvəsi*

Burada Prezidentin tez-tez işlətdiyimiz sözləri yada düşür: ***"Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik".*** Elə 2023-cü il sentyabr ayının 20-də lokal antiterror tədbirləri dövlət başçısının mövcud olan problemlərin sülh yolu, beynəlxalq hüquq normaları çərçivəsində çağırışlarını eşitməyərək ermənilərin bir daha öz planlarını davam etdirmək səylərinə tutarlı cavab – nəyin nə vaxt edilməsinin əməli sübutu idi. Və ermənilər "dəmir yumruğ"un başlarında şimşəktək necə çaxdığını bir daha gördülər. Haqlı olaraq qürur hissi keçiririk ki, həmin o nəyin nə vaxt edilməsi hesabına bu gün təqvimimizdə əlamətdar və tarixi günlərin sayı xeyli artıb. Ölkə başçısının oktyabr ayının 15-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində istirahət parkının açılışında iştirakı, həmin gün Ağdərə şəhərində, Xocalı rayonunun Əsgəran qəsəbəsində, Xocavənd şəhərində Dövlət Bayrağını ucaltması, səfər çərçivəsində Əsgəran qalasına və əraziyə, həmçinin Əsgəran qəsəbəsinə baxış keçirməsi, Ağdam-Füzuli avtomobil yolunun tikintisi işlərinin gedişi ilə tanış olması cənab İlham Əliyevin Qarabağ iqtisadi rayonunun Azərbaycan üçün böyük strateji əhəmiyyət verməsinin bir daha sübutu kimi yaddaşlara həkk edildi.

Oktyabrın 16-da davam edən və tarixə qovuşan həmin gün səfərin coğrafiyası bir qədər də genişləndi, daha bir neçə uğurlu layihənin təməli qoyulmaqla yadda qaldı. Səfər çərçivəsində Cuvarlı və Qoçəhmədli kəndlərinin, Füzuli şəhərinin Baş planına əsasən yeni yaşayış məhəllələri çərçivəsində çoxfunksiyalı zonada yerləşən iki ərazidən ibarət ikinci yaşayış kompleksinin, 240 yerlik uşaq bağçasının, üçüncü yaşayış kompleksinin, inzibati binanın Prezident tərəfindən təməlinin qoyulması hər birimizə böyük qürur hissi yaşatdı. Füzuli şəhərində dövlət başçısının 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən inşa ediləcək idman kompleksi isə yeniyetmə və gənclərin, ümumilikdə, rayon sakinlərinin asudə vaxtlarının səmərəli təşkilində, burada müxtəlif idman yarışlarının keçirilməsində mühüm əhəmiyyət daşıyan obyekt kimi, ölkəmizin dinamik inkişafının, həm də ermənilərə növbəti gözdağının göstəricisi oldu.

*Fəaliyyət proqramının başlıca prioriteti*

Azərbaycanda bütün işlərin təməlində Heydər Əliyev amilinin, Heydər Əliyev siyasətinin dayandığını, bu siyasətə, milli liderimizin vəsiyyətinə sadiqliyini dəfələrlə sübut edən cənab İlham Əliyev həm də dahi rəhbərin arzu və istəklərinin, Azərbaycan dövləti haqqında planlarının, arzularının yerinə yetirilməsini təmin edərək ölkəmizin uzun illər həllini gözləyən bir probleminin birdəfəlik aradan qaldırılmasını siyasi uzaqgörənliklə, mahir strateq kimi gerçəkləşdirdi...

***"Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət Bayrağı dalğalanır, Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra Milli Dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu sözləri hakimiyyətə gəldiyi ilk illərdə demişdi. Bu, ermənilərə və onların havadarlarına bir mesaj olmaqla yanaşı, həm də ölkə başçısının fəaliyyət proqramının başlıca prioriteti idi. Artıq o bayraq bütöv Azərbaycanın hər bir guşəsində dalğalanır və Prezidentin dediyi kimi: ***"Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"***

***P.S.*** *Sıravi bir Azərbaycan vətəndaşı kimi düşünürəm ki, ermənilərin 200 il ərzində xalqımıza qarşı əsassız torpaq, milli-mənəvi dəyərlərimizə sahib çıxmaq iddialarına cənab İlham Əliyev 20 ildə son qoymağa nail oldu, ərazi bütövlüyümüzü bərpa etdi. Bundan sonra, yəqin ki, onlar son 3 ildə gördükləri "dəmir yumruğ"un ağrılarını hələ çox yaşayacaqlar.*

**Muxtar MƏMMƏDOV**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

## "İntibahın 20 ili" mövzusunda konfrans keçirilib



Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecində "İntibahın 20 ili" mövzusunda konfrans keçirilib. Konfransı kollecin direktoru Asəf Ruşanov giriş sözü ilə açıb.

Bildirilib ki, Ulu Öndərin layiqli davamçısı Prezident cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-2023-cü illər çoxəsrlik milli dövlətçilik tariximizə bənzəri olmayan qızıl dövr kimi düşüb. Məhz buna görədir ki, ötən dövr ərzində keçirilmiş dörd prezident seçkisində Azərbaycan xalqı öz gələcəyini yalnız Prezident cənab İlham Əliyevə etibar edib, ətrafında sıx birləşərək ardınca irəliyə doğru addımlayır.

Kollecin hərbi rəhbəri Araz Məmmədov və çıxış edən digər müəllimlər son illər Azərbaycanda baş verən mühüm əlamətdar hadisələrin nəinki iqtisadi əlaqələrin yaxşılaşdırılmasında, hətta nəqliyyatın daha da səmərəli hala gəlməsində böyük rol oynadığını bildiriblər.

Vurğulanıb ki, Azərbaycan yalnız avtomobil yolları ilə nəqliyyat siyasəti yeritmir, həttа hava, su, dəmir yolu və boru kəmər nəqliyyatına da mühüm investisiya yatırımı edib. Bu isə Prezident cənab İlham Əliyevin 20 ildə ölkəyə verdiyi xidmət və töhfələrin göstəricisidir.

Konfrans Prezident cənab İlham Əliyevin 20 illik fəaliyyəti dövrünə həsr olunmuş videoçarxa baxışla yekunlaşıb.

**Fariz ƏHMƏDOV**



# Arzulardan reallığa 20 İL

## Hər bir azərbaycanlının Prezidenti olmağı bacaran LİDER

***Lap əvvəldən başlamaq istəyirəm. O əvvəldən ki hər şey yeni başlayırdı. Əsrin 90-cı illərində ölkənin düşdüyü ağır vəziyyətin fonunda blokadada olan Naxçıvan sakinləri bunu öz həyatlarında çox ağır şəkildə hiss edirdi. Həmin illərdə hələ çox balaca olsam da evdə, ailədə olan söhbətlərdən, az-çox gördüklərimdən nəyinsə yolunda getmədiyini hiss edirdim. Əmilərimin sübhün gözü açılmamışdan çörək almaq üçün evdən çıxdıqlarını, axşamtərəfi bibimi işdən gətirmək üçün mütləq şəkildə onu qarşılamağa getdiklərini indi də çox yaxşı xatırlayıram. Məhəllədə neft, ondan sonra isə qaz doldurmaq üçün dayanan iri çənli maşınları, qışlıq neft almaq üçün bidonlarla sıraya düzülmüş qonşularımızı, səhər bir stəkan isti çay içə bilmək üçün nənəmin yandırdığı, yandırmaqdan daha çox da tüstülətdiyi samovarı, ata-anamın isitmək üçün dəridən-qabıqdan çıxdığı otağı, hər səhər gözümü açanda nəzərlərimi qarşılayan soyuq divarları və o divarda hələ də qalan, amma artıq heç bir əhəmiyyət daşımayan qaz borusunu da xatırlayıram.***

Bir də səhər tezdən yollandığım məktəbdə yolboyu müşahidə etdiyim yarıdağılmış asfaltı, hərəkət etdiyim yerin nə zamansa piyada səkisi olduğunu göstərən beton parçalarını, şüşələri qırıldığı üçün və yandıracaq heç bir şey olmadığı üçün buz kimi sinif otaqlarını, vaxtaşırı olaraq da, mənim növbəm çatdığı zamanda, neftlə işləyən sobanı yandırmaq üçün bir litrlik şüşə butulkada əllərim havanın ayazından qarsımış və donmuş şəkildə məktəbə apardığım nefti, qara tüstü-duman bürümüş sinif otaqlarını da xatırlayıram. Bunlar bütün məktəb həyatım boyunca mənim, eləcə də mənimlə birgə – məndən əvvəl və bir müddət sonra təhsil alanların da yaddaşında olanlardır. Bunlar 90-cı illərin xatirələridir. Düşünürəm ki hansı yaşda oluramsa olum, yəqin ki, elə mənimlə həmyaş olanlar da, indi hansı şəraitdə olmağımızdan asılı olmayaraq, həmin illəri heç zaman unutmayacaq, unuda bilməyəcək.

Əslində, böyük tarixin bir parçası olmaq, ona şahidlik etmək insanda çox böyük qürur hissi yaradır. Dəyişilməsinə şahidlik etdiyin bir proses, bir məkan haqqında danışmaq insanın özünü də tarixə çevirir, əslində. Həmin illərdə bunun o qədər fərqinə varmasam da, indi artıq bunu tam şəkildə dərk edə bilmək, özünü o tarixdən bir an olaraq görə bilmək insana fərqli duyğular yaşada bilir.

2003-cü ildə əsaslı təkamülün və modernləşmənin yeni mərhələsinin başlandığı, inkişafın yeni müstəviyə keçdiyi zaman mən hələ məktəbli idim. Amma dəyişimin bir addımlığındakı prosesləri tam aydın görürdüm onda; özüm şahidlik edirdim, müşahidə edirdim və anlayırdım...

Hərdən uşaq təxəyyülümün dərinliklərində ilişib qalan bir ifadə düşür yadıma; dəryalar mürəkkəb olsa, meşələr qələm... Kiçik yaşlarımdan nağıllarda eşitdiyim və fikri həqiqi mənasında qəbul etdiyim üçün dərk etməkdə çətinlik çəkdiyim bir ifadə idi bu. Həmişə sonsuzluğu, çoxluğu mübağiləli şəkildə bildirirdi bu fikir. Mənsə bunu çox sonralar tam mənası ilə anlaya bilmişdim. Amma indi sizə danışacaqlarımda bu ifadə mübağiləni yox, tam reallığı əks etdirir.

Tarixin ədəbiyyat yaddaşında belə bir müdrik kəlam var: keçmişə əsaslanıb gələcəyi görmək. 2003-cü ildə Azərbaycan xalqı da məhz həmin keçmişə əsaslanıb gələcək üçün həmrəy oldu. Dahi şəxsiyyətin uzaqgörən siyasətinin, möhkəm strategiyaya əsaslanan inkişaf konsepsiyasının uğurla davam etdirilməsinə – İlham Əliyevə səs verdi. Bəs həmin tarixdən ötən 20 il bizə nəyi göstərdi? 20 il bizim üçün böyük, tarix üçün isə kifayət qədər kiçik ölçüdür. Amma...

20 il xalqını, Vətənini, dövlətini sevən adamın istənilən sahədə uğur qazana biləcəyini bizə əyani sübutlarla göstərdi. Məhz xalq, Vətən, dövlət sevgisinin əməli işdə sübut edilməsinin nəticəsi olaraq möhkəm qətiyyət, gərgin əmək və müdrik ideologiyaya sadiqliyin vəhdətindən doğan uğurlar qazanıldı. Bu nailiyyətlər müəyyən edilmiş inkişaf yolunun alternativsizliyini bir daha sübut etdi. Əzmkarlıq, siyasi iradə və ən əsası yüksək vətənpərvərlik nümunəsi ən çətin şəraitdə də hərtərəfli inkişafın mümkünlüyünü göstərdi.

Siyasi olimpin zirvəsinə qalxanda ***“Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyev siyasətini davam etdirəcəyəm”***, – deyə verdiyi sözün üstündə duran lider inkişafının yeni mərhələsinə qədəm qoyan Azərbaycanı tarix üçün kifayət qədər qısa sayıla biləcək zaman kəsiyində böyük tərəqqi yoluna, qazandığı sosial-iqtisadi nailiyyətlərlə nəinki regionda, həm də dünyada lider mövqeyə yüksəltdi.

Hindistanın görkəmli ictimai-siyasi xadimi İndra Qandi deyirdi ki, *“Ən böyük qüdrət insanları sevməkdir”*. Elə insanları sevməyin qüdrətidir ki, Ulu Öndərin əsasını qoyduğu dövlətçilik təcrübəsi və inkişaf amilləri əldə rəhbər tutularaq bu gün Azərbaycan və azad edilmiş Qarabağ torpağı qurulur, inkişaf edir, yüksəlir, regionun yeni inkişaf dövrü, tərəqqi erası yaradılır.

***“Biz müstəqil dövlətik, öz taleyimizi özümüz həll edirik”.*** Prezident cənab İlham Əliyevin bu fikri atılan hər bir addımın əsasında ölkənin uğurlu gələcəyinin dayandığını göstərir. Bu addımlar Azərbaycanın parlaq gələcəyini təmin etməklə yanaşı, cənab Prezidentin xalqımıza verdiyi söz müasir Azərbaycanın inkişafına, tərəqqisinə yönələn fəaliyyətin konsepsiyasına çevrilmişdir.

Azərbaycan Prezidentinin özünün də dediyi kimi: ***“Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də ola bilər, o qədər böyük olmaya da bilər. Amma əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar”.*** Azərbaycanda görülən hər bir işdə sevgi və vətənpərvərlik var. Biz bunu torpağı becərən əkinçinin alın tərində, yaxşı təhsil alıb, layiqli mütəxəssis kimi yetişmək istəyən tələbənin xəyalında, yollar salan, binalar tikən mühəndisin əməyində və nəhayət, Qarabağı kərpic-kərpic bərpa edib, gələcəyi quran Müzəffər Liderin obrazında görürük.

***“Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət göstərir”***, – deyən ölkə başçısı təkcə Azərbaycan xalqının yox, ümumilikdə, Qafqaz xalqlarının taleyini dəyişə biləcək strateji təfəkkürə malikdir. Bunu isə hər birimiz əyani şəkildə görürük. Onun yüksək səviyyəli siyasətçi, mahir diplomat, strateq və sərkərdəlik səriştəsinin, xalqını sevən lider obrazının təcəssümü Xalq-Lider birliyinin vəhdətini ortaya çıxarır. Biz yeni tarixi epoxanın şahidləriyik. Bizim üzərimizə düşən isə bir parçası olduğumuz, şahidlik etdiyimiz bugünkü şanlı tarixin salnaməsini gələcək nəsillərə çatdırmaqdır. Çünki tarix qüdrətli şəxsiyyətlərin əməlləri ilə yaradılır, yazılır və yaşadılır. Tarix yazanlar isə əbədi yaşayır. Bu gün biz müasir Azərbaycanın tarix kitabını səhifələyirik.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin dünyanın ən nüfuzlu liderlərindən biri olaraq qəbul edilməsi onun qlobal fəaliyyətinin məntiqi nəticəsidir. Cənab Prezidentin dünya lideri kimi özünü təsdiqlətməsi belə əsaslandırılır: Türkiyə ilə münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəltdi, sarsılmaz bağlar yaratdı, ordusunu modernləşdirdi, Qarabağdakı 30 illik işğala son qoydu, milli mənəviyyatımıza vurulan ağır və sarsıdıcı zərbəyə son qoyaraq bir xəyalı gerçəkləşdirdi, Qərbin dəstəklədiyi Ermənistanı məğlub etdi, Ermənistanın bütün niyyətlərini puça çıxardı, Rusiya və Qərb arasında inanılmaz tarazlaşdırılmış siyasət həyata keçirdi, inanılmaz bir diplomatiya yürütdü, həm meydanda, həm siyasi masada qələbə qazandı. Bu bir tarixi gerçəklikdir ki, cənab İlham Əliyevin dünya liderlərindən biri olması artıq qəbul edilmişdir. O bunu qəbul etdirdi.

Bəs mənim uşaqlığımın yaddaşına həkk olunmuş köhnə Naxçıvan? Rus yazıçı və filosofu Aleksandr Gertsenin şairanə frazası yada düşür: *“Çiçək bitkinin məqsədi və onun həyatının mənasıdır”.* Məhz bu amal Naxçıvanın yeni epoxada müasir inkişafına təkan verən şəxsiyyətin muxtar respublikanı ölkə və beynəlxalq müstəvidə yeni mərhələyə qaldırmasına imkan yaratdı.

Yüz ilə yaxındır ki, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş, olduqca əhəmiyyətli nəqliyyat dəhlizlərinin qovşağında yerləşən və geostrateji mövqeyə malik bir bölgədə yerləşən Naxçıvana diqqət artırıldı. Naxçıvan aqrar bölgədən sənaye-aqrar kompleksinin formalaşıb inkişaf etdiyi sənaye bölgəsinə çevrildi. 90-cı illərdə enerji problemləri ucbatından ağır şəraitdə yaşayan Naxçıvan bu gün enerji ixracatçısı qismində Avropanın enerji təhlükəsizliyinə dəstək vermək əzmindədir. Naxçıvanın dünəni ilə bu gününün mənzərəsi fonunda insanlar nələrə sahib olduqlarını yaxşı bilirlər. Bu torpaqlar tarixin heç bir mərhələsində bugünkü qədər gözəl, abad və güclü olmayıb. Bu gün Naxçıvan arzu və istəklərin reallaşması ilə işıqlanan, hər birimizin qürur yeri olan doğma diyardır.

İndi Naxçıvan iki ölkə liderinin tarixi görüşünə şahidlik edən, Azərbaycanın Gənclər paytaxtı, İslam Mədəniyyətinin paytaxtı, Avropa günlərinin keçirildiyi məkan ünvanını daşımaqla yanaşı, Türk Dövlət Başçılarının Zirvə görüşünə, Türk Şurası Gənc Liderlərinin ilk forumuna, beynəlxalq konfranslara, idman yarışlarına ev sahibliyi edən, yüzlərlə xarici turisti qonaqpərvərliklə qarşılayan Şərq memarlığı ənənələri ilə ucalan müasir Qərb şəhəridir.

Əvvəldə qeyd etdiyim “dəryalar mürəkkəb olsa, meşələr qələm” ifadəsi indi nağıl içindəki gerçəklikdir, etiraf edək ki, çoxlarının həsəd apara biləcəyi inanılmaz gerçəklikdir. ***Hər bir azərbaycanlının Prezidenti olmağı bacaran Liderin yaratdığı gerçəklikdir.***

***PS.*** *Əslində, əvvəldə qeyd etdiyim o qaz borusu çox böyük bir ümidin simvolu idi bizim üçün. Yenidən mavi yanacağın şölələnəcəyinə inamın simvolu. Uzun illər, hətta həyətdəki divarda – məhz yeni qaz xətti çəkilənə qədər – 2005-ci ilə qədər o boru öz yerində qaldı. Mənim üçün o boru başqa bir mənanı da ifadə edirdi; insanların öz liderinə olan inamlarının simvolunu.*

**Məmməd BABAYEV**

## FAO-nun Azərbaycandakı ofisinin Naxçıvan bölməsi fəaliyyətə başlayıb



*Bu barədə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində keçirilən tədbirdə məlumat verilib.*

Qeyd edək ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəsi Muhammad Nasar Hayat və onun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvana səfər edib. Səfərin ikinci günündə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində tədbir keçirilib, kənd təsərrüfatı sahəsində həyata keçiriləcək layihələrin müzakirəsi aparılıb.

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova cari ildə muxtar respublikada aqrar sahədə aparılan islahatları diqqətə çatdırıb.

FAO-nun fəaliyyəti barədə məlumat verən nazir müavini qeyd edib ki, bu təşkilat əvvəlki dövrlərdə Azərbaycanda kənd təsərrüfatı sahəsində bir sıra layihələr həyata keçirib və böyük uğurlar əldə edilib. Layihələrin nəticəsi olaraq fermerlərin, ailə təsərrüfatçılarının, o cümlədən dövlət qurumlarında çalışan kadrların potensialı artırılıb, idxal və ixrac məsələlərində mühüm yeniliklər əldə olunub, laboratoriya sistemi gücləndirilib.

Qeyd olunub ki, bu istiqamətdə görülən işlərin Naxçıvanda da həyata keçirilməsi üçün artıq FAO-nun Azərbaycandakı ofisinin Naxçıvan bölməsi fəaliyyətə başlayıb. İlkin mərhələdə dövlət qurumları ilə yanaşı, kənd təsərrüfatı istehsalçılarının da aqrar sahəyə baxışı müzakirə edilərək sorğu aparılacaq. Sorğuların nəticəsi olaraq qiymətləndirmə aparılıb, müvafiq addımlar atılacaq. Məqsəd isə Naxçıvanın ekoloji təmizliyini qoruyub saxlamaq, torpaqların çirklənməsinin qarşısını almaq, həmçinin əkinçilik və heyvandarlıq sahəsində yeni metodların tətbiqi məqsədilə mütərəqqi suvarma sistemlərinin və digər intensiv vasitələrin Naxçıvan Muxtar Respublikasına gətirilməsidir. İqlim dəyişikliyi iqlimə uyğun xarakterik, quraqlığadavamlı bitkilərin Naxçıvana gətirilməsini və bu sahədə inkişafın əldə olunmasını zəruri edir. Ona görə də gələcəkdə Naxçıvanda ixtisaslaşma aparılaraq, iqlimə uyğun bitkilərin əkini də həyata keçiriləcək.

“Hədəfimiz FAO ilə birgə təkcə bir sahə deyil, ümumilikdə, kənd təsərrüfatının inkişafı və bu istiqamətdə görüləcək tədbirlər çərçivəsində Naxçıvanda orqanik məhsul yetişdiriciliyi üzrə layihələrin həyata keçirilməsidir”, – deyən Xəyalə Dadaşova “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda orqanik məhsulların istehsalının artırılması, eləcə də brendləşdirilməsinin qarşıya hədəf kimi qoyulduğunu diqqətə çatdırıb.

Bildirilib ki, FAO-nun bütün dünya ölkələrində olan təcrübəsinin nəticəsi Naxçıvana da öz töhfəsini verəcək.

Sonra Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aqrar məsələlər və ekologiya şöbəsinin müdiri Mübariz Bayramovun, FAO-nun Türkiyədəki nümayəndəsi Sumiter Brocanın, FAO-nun Azərbaycandakı tərəfdaşlıq və əlaqələndirmə ofisinin rəhbərinin müavini Bariz Mehdiyevin və digərlərinin çıxışları dinlənilib. FAO-nun fəaliyyət istiqamətləri, o cümlədən Naxçıvanda aqrar sahədə görüləcək işlər diqqətə çatdırılıb, fikir mübadiləsi aparılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Hüquq sahəsində aparılan islahatlar müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatının birgə təşkilatçılığı ilə “Hüquq islahatlarının müasir mərhələsi – 20 il” mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin köməkçisi Rəşid Talıbov və Ali Məhkəmənin şöbə müdiri Tural Cəfərov açıb. Sonra Ali Məhkəmənin əməkdaşı Xasa Seyidovanı, Ombudsmanın əməkdaşı Həsən Həsənovun, Vəkillər Kollegiyasının üzvü Mircəlal Seyidovun müxtəlif mövzularda çıxışları dinlənilib.

Çıxışlarda ölkədə həyata keçirilən müasir hüquq islahatları, hüquq sistemini dövrün reallıqlarına uyğunlaşdırmaq, məhkəmə orqanlarının özünüidarə imkanlarını genişləndirmək və ədalət mühakiməsinin səmərəliliyini artırmaq istiqamətində aparılan işlər, həmçinin hüquq institutlarının inkişafı və demokratik hüquqi dövlət quruculuğu sahəsində ölkə Prezidenti cənab İlham Əliyevin əvəzsiz xidmətlərindən danışılıb.

Sonda videoçarx nümayiş etdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

*Xalqımızın qürur mənbəyi olan 2020-ci ilin 44 günlük müharibəsi tarixboyu torpaqlarımıza, yurd yerlərimizə göz dikən erməni vandallarına layiqli cavab oldu. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək torpaqlarımızı yadelli işğalından azad etdi. Torpaqlarımızın yadelli işğalından azad olunması XX əsrin əvvəllərində sovet dövləti tərəfindən ermənilərə bəxşiş edilən Qərbi Azərbaycan torpaqlarının geri qaytarılması məsələsini də gündəmə gətirmişdir.*

*Tarixi Azərbaycan torpaqları*

# Göyçədə yaşayan tariximiz



Araşdırmalar göstərir ki, Qərbi Azərbaycanda yerləşən Göyçə mahalının tarixi Qədim Daş dövrünə gedib çıxır. Göyçə hövzəsində Quru-Xarabadan aşkar olunan obsidian alətlər burada Paleolit dövründən yaşayış olduğunu göstərir. Lakin indiki Ermənistana qatılan Qərbi Azərbaycan torpaqlarının kimə məxsus olduğunu aydınlaşdırmaq üçün çox da qədimə getməyə ehtiyac qalmır. XIX əsr mənbələrində, xüsusilə rus tədqiqatçıların əsərlərində Göyçə mahalındakı yer-yurd adlarının türk dilində olması bu baxımdan diqqətəlayiqdir. Rus tədqiqatçısı A.A.İvanovski Rusiya hakimiyyətinə aid ərazilərin təsvirini verərkən bu ərazini "Göyçə gölü hövzəsi" adlandırmışdır. Tədqiqatçı bu sözün "Göyçə", yaxud "Göy çay" olduğunu və türk dilində mavi su anlamında işlədildiyini qeyd etmişdir. Göyçə gölü qərbdən Şorgöl, şərqdən Adtəpə burunlarının bir-birinə yaxınlaşması ilə iki qeyri-bərabər hissəyə ayrılır. Gölün şimal-şərq sahili boyunca uzanan Şahdağ, yerli əhali tərəfindən Güney, ondan qərbdəki dağlar isə Pəmbək adlanır. Hər iki silsilə Kömürlü dağın yaxınlığından keçir. Güney silsiləsinin ən yüksək zirvələri Maralcadağ (2606 m), Soyuxbulaq (2684 m), Kirkitdağ (2749 m), Əyricə (2660 m), Qaraarxac (3057 m), Ginaldağ (3370 m) və digərləridir. Gölün cənubundan şimala doğru Qarabağ silsiləsi uzanır. Gölün cənub-qərb tərəfində Bəkləmiş, Dərələyəz, Gözəldərə, Qaraxlı, Abdul-Hassar, qərbdə Əyricə, Ağdağ, Üçtəpə və digər dağ silsilələri vardır. Bu yer adlarının siyahısını daha da artırmaq olar və bunların içərisində heç bir erməni adına rast gəlinmir. Sadəcə, bəzi yer adları rus sözləri ilə əvəz edilib. Göyçə hövzəsində yerləşən Göyhasar və Göyəm obsidian yataqları qədim dövrlərdən Azərbaycanda yaşayan tayfalar tərəfindən istismar olunub. Keramika və kömür nümunələrinin araşdırılması eradan əvvəl VII minillikdən başlayaraq bu bölgədəki obsidian yataqlarından istifadə edildiyini göstərir. Zəngəzur yataqlarının Naxçıvana daha yaxın olmasına baxmayaraq, Neolit dövründə I Kültəpədə yaşayan insanlar Göyçə obsidianına da üstünlük vermişdir. Ümumiyyətlə, Göyçə və Zəngəzur Neolit və Eneolit dövrlərində Naxçıvan, Qarabağ və Urmiya hövzəsində yaşayan insanların yaylaq yeri olmuşdur. Azərbaycanın cənub bölgələri üçün xarakterik olan Dalmatəpə mədəniyyətinin Zəngəzurda aşkar olunması da bunu bir daha sübut edir.

Bədxah qonşularımız uzun müddət, xüsusilə sovetlər dövründə Azərbaycanın cənub bölgələrində yayılan mədəniyyətləri öz adlarına çıxmağa çalışmış, abidələrin və mədəniyyətlərin adlarını belə saxtalaşdırmışlar. Neolit dövrünə aid olan Mahaltəpə və Xatunarx yaşayış yerlərini uyğun olaraq Arataşen və Aknaşen adlandırmışlar. Orta Tunc dövründə İrəvan yaxınlığındakı Təzəkənd kəndi ilə bağlı olan "Təzəkənd mədəniyyəti"ni Karmirberd mədəniyyəti kimi qələmə vermişlər. Lakin onların bu saxtakarlığı elm aləmində möhkəmlənə bilməmişdir.

Azərbaycan-ABŞ arxeoloji ekspedisiyasının Şərur rayonundakı Qızqala yaşayış yerində apardığı araşdırmalar Orta Tunc dövrü "Boyalı qablar mədəniyyəti"nin Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda məskunlaşan oturaq və köçmə həyat tərzini mənimsəmiş tayfalar tərəfindən yaradıldığı, Göyçə hövzəsinə doğru uzanan yaylaqların Naxçıvanda yaşayan tayfaların məskəni olduğu sübut edilmişdir.

Rus tədqiqatçıları Göyçə hövzəsində Quru Xaraba adlı yerdə qeydə alınan kurqanların Monqolustanda Orxon vadisində aşkar olunan kurqanlarla bənzər olduğunu qeyd etmişlər.

Son Tunc və Erkən Dəmir dövrlərində Qarabağ və Gədəbəydə formalaşan Xocalı-Gədəbəy mədəniyyəti Göyçə hövzəsi, Dilican, Xudafərin və Urmiya hövzəsini əhatə edən böyük bir regiona yayılmışdır. Bu mədəniyyətin formalaşdığı regionda yaşayan Etiuni tayfaları Urartu dövlətinə qarşı kəskin müqavimət göstərmiş, onların Azərbaycan torpaqlarını işğal etməsinə imkan verməmişdir. Yeri gəlmişkən, qeyd edək ki, dünya alimlərinin araşdırmaları sübut etmişdir ki, urartuların ermənilərlə heç bir etnik bağlılığı yoxdur. Yaxın Şərqin böyük dövlətlərindən biri olan Urartunun ilk paytaxtı indiki Suriya ərazisindəki Suqunia, sonra Arzaşkun, eradan əvvəl IX əsrdə isə Van gölü sahilindəki Tuşpa olmuşdur. Eradan əvvəl VIII əsrdə onlar Cənubi Qafqaza yürüş edərək indiki Ermənistanda Erebuni, Teyşebani və Argiştihinili adlı üç şəhər inşa etmiş, bu şəhərlərin Aza qəbiləsindən olan yerli əhalisini köçürmüş və onların yerinə Çupani bölgəsindən olan insanları yerləşdirmişlər.


Xocalı-Gədəbəy mədəniyyətinə aid silahlar

Göyçə mahalında Kolanı, Zağalı və Ördəkli kəndləri yaxınlığında olan mixi yazılar urartuların bu bölgələrə hücumlarından xəbər verir. Ördəkli kitabəsində Urartu hökmdarı Argişti Göyçə gölünün şimalında yerləşən Kiexuni ölkəsinin şəhərlərini işğal etdiyini yazmışdır. Ermənilər sonradan bu adı dəyişdirərək Keqaxuni adlandırmışlar. Qeyd etmək istəyirik ki, Zağalı kitabəsi tapılanadək Urartu dövlətinin adı yalnızca Assur mənbələrindən məlum idi. II Sardurinin dövrünə aid Zağalı kitabəsində ilk dəfə olaraq bu dövlətin adına rast gəlinmişdir. Lakin qeyd etməliyik ki, urartular yalnızca bu ərazilərə işğalçı yürüşlər etmişlər. Urartu hökmdarlarının mixi yazılarda lovğalıqla bu bölgənin şəhərlərini işğal etdiklərini yazmalarına baxmayaraq, onlar yerli əhalinin müqavimətinə rast gəlmiş və bu bölgədə şəhərlər inşa edə bilməmişlər. Urartu hökmdarları heç vaxt məğlubiyyətlərini etiraf etməmişlər. Lakin biz onların məğlub olduğunu Assur mənbələrindən yaxşı bilirik. Yazılı mənbələrdə skiflərin məskunlaşdığı Qarabağ bölgəsi İşkuqulu ölkəsi olaraq xatırlanmışdır. Kimmerlər isə Göyçə hövzəsində məskunlaşmışdılar. Assur kəşfiyyatının hökmdara yazdığı məktubların birində Urartu birliklərinin Kimmer ölkəsində ağır məğlubiyyətə uğramasından və baş komandanın əsir düşməsindən yazılmışdır. Mənbələrin məlumatına görə, köçəri kimmerlər Urartunun bir yanından girib o biri yanından çıxmış və bu məğlubiyyət zamanı sərkərdələrini itirən Urartu zəifləmiş, Assur hökmdarı II Sarqonun hücumuna məruz qalmışdı.




Bu dövrdə Qərbi Azərbaycanda məskunlaşan qüdrətli tayfalardan biri də etiuni tayfaları idi. Bu tayfalar Xocalı-Gədəbəy mədəniyyətinin varisləri idi. Azərbaycanın qərb bölgələrinin antik mənbələrdə Otena adlanması heç də təsadüfi deyil. Urartu mənbələrində ən çox xatırlanan tayfalardan biri etiuni tayfalarıdır. Etiuni tayfaları Urartu mənbələrində Göyçə gölü sahilində xatırlansa da, bu ölkənin Naxçıvana qədər uzandığını və Naxçıvanı da əhatə etdiyini demək olar. Naxçıvanın yaxınlığında, Sisianda tapılan mixi yazıda Urartu hökmdarı II Argişti belə demişdir: "Etiuni ölkəsinin kralı gəldi və ölkəsinin vergisini mənə verdi". Bu yazıdan məlum olur ki, etiunilər xərac verməklə öz müstəqilliklərini qorumuşlar.

Bədxah qonşularımız tarixi gerçəkliyi hər zaman dəyişdirməyə çalışmış, tarixi türk torpaqlarını öz adlarına çıxmışlar. Onlar elə Göyçə gölünün adını da dəyişdirərək Sevan adlandırmışlar. Sevan sözünün etimologiyası ilə bağlı müxtəlif fikirlər var. Bu ad XIX əsr rus mənbələrində Sevanq şəklində xatırlanmışdır. Sevanq adı Göyçə gölündəki adaya verilmişdi. Bəziləri bunu xristian dininin təbliğatçısı Müqəddəs Qriqorinin adı ilə bağlayırlar. Guya ki, o belə demişdir: Sa vanq, yəni budur monastr. Digər bir mülahizəyə görə Sevan adı Senq Vanq sözündən törəmiş və mənası ermənicə "qara kilsə" deməkdir. Guya bu adada vaxtilə kilsə olmuş və erməni-qriqorian kilsəsinin əleyhdarları bura sürgün edilmişdir. Buna görə də ada Sevanq adlanmışdır. Ancaq bu adın Göyçə gölünə 1930-cu ildə verildiyini nəzərə alsaq, onun yamaqdan başqa heç bir şey olmadığını anlamaq o qədər də çətin olmaz.

*Bununla belə həm arxeoloji abidələr, həm qədim mədəniyyətlər, həm qədim mənbələr, həm də rus mənbələrində xatırlanan toponimlər və tayfa adları Göyçə və Zəngəzurun qədim dövrlərdən Azərbaycan xalqına məxsus olduğunu təsdiq edir.*

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

## Ankara arxivlərindən Naxçıvanla bağlı 500-ə yaxın sənəd toplanıb



AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim və orta əsrlər şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev və Qafqaz tarixi şöbəsinin böyük laborantı Əli Tağıyev oktyabr ayındaTürkiyə Cümhuriyyətinin Ankara şəhərində 15 günlük ezamiyyədə olublar.

Ezamiyyədən qayıdan tədqiqatçıları AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qəbul edib. Dosent İlhami Əliyev ezamiyyə müddətində axtarış apardıqları arxivlər, əldə olunan sənədlər, həmin sənədlərin məzmun və mahiyyəti barədə ümumi məlumat verib. Tədqiqatçı bildirib ki, Türkiyə Cümhur Başqanlığı arxivlərində, Türk Tarix Qurumu və Türkiyə Cümhuriyyəti Genel Qurmay Başqanlığı Hərb Tarixi və Strateji Araşdırmalar Başqanlığı Arxivində Naxçıvanla bağlı arxiv sənədlərinin toplanması məqsədilə aparılan axtarışlar nəticəsində 3000 səhifədən artıq 500-ə yaxın sənəd əldə olunub. Xarici İşlər Nazirliyi Türk Diplomatik Arxivi, Dövlət Arxivləri Başqanlığı Cümhuriyyət Arxivi, Dövlət Arxivləri Başqanlığı Osmanlı Arxivi, Milli Müdafiə Nazirliyi Hərbi Tahrir Arxivinin fondlarında Naxçıvan tarixinin bütün dövrləri ilə bağlı toplanan materiallar Naxçıvanın tarixi, mədəniyyəti, müxtəlif tarixi dövrlərdəki sosial-iqtisadi həyatı ilə bağlıdır. Qeyd etmək lazımdır ki, bu yalnız sənədlər haqqında irəli sürülən ilkin fikirlərdir. Toplanan sənədlərin dəqiq və ciddi araşdırılması üçün bir qədər zamana və sahə üzrə mütəxəssislərə ehtiyac vardır.

Arxiv materialları üzərində çalışmağın böyük məsuliyyət, diqqət və səbir tələb etdiyini dilə gətirən bölmə sədri bildirib ki, AMEA Naxçıvan Bölməsində elmi-tədqiqatların daha dərindən və dəqiq aparılması üçün arxiv sənədləri ilə işləmək ənənəsi mövcuddur. Bölmənin bəzi əməkdaşlarının əvvəlki illərdə respublikamızla yanaşı, İngiltərə, Rusiya və Gürcüstan arxivlərində araşdırma apardıqlarını xatırladan akademik bildirib ki, bu istiqamətdə işlər gələcəkdə də davam etdirilməli, axtarışların əhatə dairəsi genişləndirilməlidir.

Sonda İlhami Əliyev və Əli Tağıyev sənədlərlə bağlı onlara ünvanlanan sualları cavablandırıblar.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## “Heydər Əliyev və ailə dəyərləri” mövzusunda film və fotomüsabiqənin qalibləri mükafatlandırılıb



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Heydər Əliyev və ailə dəyərləri" mövzusunda film və fotomüsabiqə qaliblərinin mükafatlandırılması ilə bağlı tədbir keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ümummilli Lider Heydər Əliyev, akademik Zərifə xanım Əliyeva və şəhidlərin əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Ümummilli Lider Heydər Əliyevin zəngin mədəni irsini əks etdirən film nümayiş olunub.

Sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək qeyd edib ki, komitə tərəfindən keçirilən müsabiqələr artıq ənənə halını alıb. Qeyd olunub ki, ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə millətin gələcəyinə, təhsilin, səhiyyənin, iqtisadiyyatın, mədəniyyətin, ailə, qadın və uşaq siyasətinin hərtərəfli inkişafına həmişə qayğı ilə yanaşan Ümummilli Lider ailənin cəmiyyətdəki rolunu xüsusi qeyd edərək deyirdi: ***"Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir".***

Ulu Öndərin heç bir Azərbaycan ailəsinə laqeyd qalmadığını bildirən Ramilə Seyidova Azərbaycanda ailə ənənələrinin ləyaqətlə davam etdirilməsi üçün hər cür imkan və şərait yaratdığını, bu işdə dəstəyini xalqdan əsirgəmədiyini bildirib. Ümummilli Lider Heydər Əliyevin tarixdə silinməz iz qoyan nəsil şəcərəsi, eləcə də özünün nümunəvi ailə tarixçəsi, onun müqəddəs ocağının layiqli davamçıları – Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ailəsi cəmiyyətimizə, xüsusən də gənclərə böyük örnəkdir.

Sonda komitə sədri film və fotomüsabiqənin qaliblərini təbrik edərək onlara uğurlar arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Asəf Orucov müsabiqənin keçirilməsinin vacibliyindən, zəngin ailə dəyərlərindən bəhs edərək müsabiqə iştirakçılarına təşəkkür edib.

Tədbir müsabiqə qaliblərinin diplom və hədiyyələrlə mükafatlandırılması, həmçinin qalib müsabiqə iştirakçısının təqdim etdiyi "Azərbaycana həsr edilən ömür" filminin nümayişi ilə başa çatıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Artıq üç ildir ki, hər payız fəslində Azərbaycan xalqı olaraq böyük qalibiyyətin – Qarabağ Zəfərinin ətrini duyuruq. Hələ uşaqlıq illərindən adını eşitdiyim Şuşanın, Laçının, Kəlbəcərin və digər tarixi Azərbaycan torpaqlarının, eləcə də daim qəlbimizdə alovlanan Qarabağ həsrətinin sona yetdiyi bu fəsil sanki daha da doğmalaşıb bizə. Axı necə doğmalaşmasın? Bir halda ki, 30 ilə yaxın bir müddətdən sonra düşmən işğalından azad edilən ərazilərimizə qəhrəman oğullarımız, igidlərimiz ayaq basır. Girişi çox uzatmadan həmin cəsur oğullarımızdan biri ilə tanış etmək istəyirəm oxucularımızı. Həmçinin İkinci Qarabağ müharibəsində Vətənin igid oğullarının qətiyyətli addımlarla irəlilədiyi o çətin, məşəqqətli yolların, apardıqları mübarizənin tarixçəsini elə Zəfər şahidlərinin dilindən çatdırmaq istəyirəm sizlərə.*

# Vətən qayəli, barıt qoxulu xatirələr işığında



***Mövzumuzun qəhrəmanı ilə ilk tanışlıq***

Oktyabr ayının ikinci həftəsidir. Şəhərimizin mərasim evlərindən birində, Vətən müharibəsi qəhrəmanlarının şərəfinə, onların döyüş yoluna həsr edilmiş tədbir təşkil olunub. Hər kəs öz yerini alıb və bir-birindən maraqlı çıxışları dinləyir. Kimi əlində üçrəngli Azərbaycan Bayrağını tutub şeirlər səsləndirir, kimi də ürəkoxşayan vətənpərvərlik ruhunda musiqi nömrələri ifa edərək qəlbimizin sarı siminə toxunur. Bir sözlə, bütün diqqətimiz kiçik, lakin mənəviyyatca böyük xatirələrə işıq tutan səhnəyə zillənib. Bu zaman dəhlizdən eşidilən aram, həzin ayaq səsləri hər kəsin diqqətini səs gələn tərəfə yönəldir. Bu ayaq səslərinin sahibi Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlı Qüvvələrində hərbi xidmətdə olmuş, Vətən müharibəsində canla-başla xidmət etmiş, ərazi bütövlüyümüzün təmin olunmasında şücaət göstərmiş “Azərbaycan Bayrağı” ordeni və “Xocavədin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, Azərbaycan Silahlı Qüvvələrinin 90, 95, 100 illik “Yubiley” və 3-cü dərəcəli “Qüsursuz xidmətlərə görə” medalları ilə təltif olunan Kəngərli rayon sakini, müharibə iştirakçısı **Əli Kərimov** şəhid qardaşlarının, döyüş yoldaşlarının qəhrəmanlığından, mübarizliyindən danışmaq üçün tədbirdə iştirak edəcək. Onu qeyd edim ki, mən bu mövzuda təşkil edilən bir çox tədbirlərdə iştirak edib, Əli Kərimov kimi igid oğullarımızın söhbətini dinləmişəm, həmin söhbətləri qələmə alıb yaddaşlara köçürmədikdə, bəzən çox peşman olmuşam, heyifsilənmişəm özüm-özümə. Amma bu dəfə qərara aldım ki, bu gənc Vətən oğlunun 44 günlük haqq-ədalət mübarizəmizdə keçdiyi döyüş yolunun maraqlı tarixçəsini, elə o danışdıqca, söylədikcə kağıza köçürüm...

***Şanlı Zəfərin başlanğıcı…***

Qəhrəmanımız səhnəyə hakim şəkildə, elə ürəklə, danışır ki, təsirlənməmək, qürurlanmamaq əldə deyil. O, xalqımızın müharibə dövründə nümayiş etdirdiyi birlik və bərabərlikdən, həmrəylikdən, uşaqdan-böyüyə hər kəsin bir amal uğrunda cəm olub mübarizə aparmasından danışır… İştirakçılara çatdırdığı hər fikri, hər sözü sanki ruhən yaşayır: “Ali Baş Komandanımızın sərkərdəliyi ilə qəlbimizdə qurulan Azərbaycan eşqi idi bizə haqq yolunu göstərən. Bunun nəticəsi idi ki, bayraq sevgisi, torpaq məhəbbəti ilə silahlanan qəhrəman igidlərimiz Qarabağ savaşından alnıaçıq, üzüağ çıxdı. Vətənin dar günündə onun köməyinə yetişən minlərlə ərənimiz qanları ilə tarix yazdı, onlar həm də adlarını zəfər tariximizə həkk etdirdilər. Çətindir həmin günlərə qayıtmaq, hər anı yada salmaq çox ağırdır bizlər üçün. Burada şəhid yaxınları da var. Gərək məni bağışlayasınız, sizə o ağrılı-acılı günləri xatırlatdığım üçün. Amma bu gün söylədiyimiz bütün həqiqətlər, reallıqlar gələcək nəsillər üçün bir örnək, qürur olacaq. Bizim əmilərimiz, dayılarımız, atamız döyüşdə iştirak edib, düşmənə qan uddurub deyəcəklər. Öyünəcəklər, fəxr edəcəklər. Gələcək Poladlar, Mübarizlər, Çingizlər, Salatınlar da məhz bu həqiqətləri eşidən, bilən Vətən övladlarının ocağında yetişəcək. Vətənimiz, Azərbaycanımız igid oğullar, qızlar qazanacaq.

***Bu gün gərək hər anımız Vətən desin, Vətən söyləsin!***

Əli Kərimov şanlı Vətən müharibəsində ordumuzun şücaətindən, qəhrəmanlığından danışdıqca qeyri-ixtiyari düşüncələrin eyforiyasına qapılıram. Erməni kimi qəddar, zalım, qaniçən “millətin” süni şəkildə yaratdığı bu müharibədə, yenə də Azərbaycan Ordusu öz səbrini, təmkinini qorudu. Yalnız əks-hücum əməliyyatı ilə başladı mübarizəyə. Nəticədə, elə bütün dünyanın da bildiyi kimi, Azərbaycan Respublikasının təntənəli zəfəri ilə başa çatdı. Düşüncəmizin bu yerində Əli Kərimovun dilindən eşitdiyim, hər birimizə tanış olan misralar məni oyadır sanki. “Bu gün gərək hər anımız Vətən desin!” Necə də dərin mənalı, qürurlu səslənir bu söz. Bəlkə də, bu misraları dilində əzbər etdikləri üçün igid oğullarımız tarix yazdılar, tarix oldular. Elə Əlinin də söylədiyi kimi: “Vətən müharibəsi Ali Baş Komandanımız cənab İlham Əliyevin 20 il ərzində necə qüdrətli ordu yaratdığını göstərdi. Həmin ordu illərlə Qarabağda möhkəmlənən mənfur düşməni cəmi 44 günə qarşısında diz çökdürdü, ağır şərtli kapitulyasiya aktına imza atdırdı. Bu həm də qalib sərkərdə qətiyyətinin təcəssümü, illərlə yürüdülən müstəqil siyasətin təntənəsi idi. Fəxr edirəm ki, müzəffər Ordunun qalib zabiti kimi yazılan şərəfli tarixdə mənim də imzam var. İstərdim fürsətdən istifadə edib sizə uşaqlıq xatirələrimdən də danışım. Atam Birinci Qarabağ müharibəsinin iştirakçısı olduğundan mən də orta məktəbdə oxuyanda artıq qərar vermişdim ki, mütləq hərbçi olacağam. Səkkizinci sinfi bitirdikdən sonra valideynlərimin də razılığı ilə şəhərimizdəki Heydər Əliyev adına Hərbi Liseyə sənəd verdim, imtahanlardan müvəffəqiyyətlə keçib, məktəbə qəbul oldum. Müxtəlif illərdə Naxçıvanda, Türkiyədə, həmçinin Gürcüstanda bir çox təlimlərdə iştirak etdim. Daim hazırlıq keçdik, istənilən döyüş tapşırıqlarını yerinə yetirmək üçün çalışdıq. Təyinatımı alıb peşəkar hərbçi kimi fəaliyyətimə başladıqda da daim öyrəndiyimiz ali qanunları yaşatdıq. Təvazökarlıqdan bir az uzaq olsa da, deyim ki, tabeçiliyimizdə olan əsgərlərin əsl xüsusi təyinatlı kimi yetişməsi üçün əlimdən gələni əsirgəmədim. Çünki biz bilirdik ki, torpaqlarımız düşmən tapdağında uzun müddət qalmayacaq. Ali Baş Komandanımız bütün çıxışlarında bəyan edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmır və barışmayacaq. Qarabağ Azərbaycanın əzəli torpaqlarıdır və biz o yurda qayıdacağıq. Əgər sülh yolu ilə alınmasa, biz başqa variantlara əl atacağıq. Biz də görürdük ki, düşmən başqa dövlətlərin himayəsində hərlənməklə sülh danışıqlarından yayınır və bəhanələr gətirir. Bu isə müharibəni qaçılmaz edirdi. Buna görə də Ali Baş Komandanımız hər



il hərbi büdcəmizi zənginləşdirdi və bununla Silahlı Qüvvələrin arsenalını modernləşdirdi, müasirləşdirdi. Ordumuzun maddi-texniki təchizatı günü-gündən gücləndirildi. Bununla yanaşı, dövlətimiz daim hərbçilərə diqqətlə yanaşdı, onların mənzil-məişət şəraitini yaxşılaşdırdı. Nəticədə, Azərbaycan Silahlı Qüvvələri tam hazır vəziyyətdə Böyük Zəfəri gözləyirdi. Əslində, ordumuz bu günün yaxında olacağına əmin idi. 2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt əməliyyatı, 2020-ci ilin iyulunda Tovuz döyüşləri bizə tezliklə mübarizənin başlanacağı mesajını verirdi. Nəhayət ki, arzumuza çatdıq. Torpaqlarımızı işğaldan azad etdik. Bu döyüşlərdə düşmən Azərbaycan Silahlı Qüvvələrinin nəyə qadir olduğunu gördü. Ali Baş Komandanımız hər kəsi vahid amal ətrafında səfərbər etdi və nəticədə, “dəmir yumruq” əməliyyatı ilə düşmənin başı əzildi. Ermənistana elə bir zərbə vuruldu ki, hələ uzun illər özünə gələ bilmək üçün yollar axtaracaq”.

***Torpaqlarımız uğrunda mübarizə xəbərini toy-bayramla qarşıladıq***

Tədbir iştirakçılarının, eləcə də vətənpərvər gənclərimizin təkidi ilə Əli Kərimov bizlərə 44 günlük Vətən müharibəsindən başlamasından danışır: “Sentyabrın 27-də Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusu Ermənistan Silahlı Qüvvələrinin hücumlarına cavab olaraq əks-hücum əməliyyatı ilə döyüşə başladı. Bizə də xəbər gəldi ki, hazırlaşın ön cəbhəyə, döyüşə yollanırıq. İnanın ki, hərbi hissədə sanki toy-bayram idi, hamı sevinirdi. Hər kəsin qəlbindəki yeganə bir qorxu var idi – müharibədə iştirak edə bilməmək… Müharibə başlayan gündən saatları sayırdıq, sanki. Ancaq mövcud qaydaları gözləmək zəruri olduğu üçün gözləyirdik. Nəhayət, oktyabrın 11-də Naxçıvandan yola düşdük və ilk olaraq Füzuli-Xocavənd istiqamətində müxtəlif mövqelərdə toplandıq. Burada Naxçıvan Xüsusi Təyinatlı Qüvvələrin komandanı, polkovnik Tehran Mənsimov şəxsi heyət qarşısında çıxış edib, Birinci Qarabağ savaşındakı təcrübələrindən, müharibədə bizi nələrin gözlədiyindən, nələrlə qarşılaşa biləcəyimizdən danışdı və tövsiyələrini verdi. Polkovnik dedi ki, Vətənin işğalda olan bir qarış torpağı uğrunda savaşıb geri almaq fəxarətdir. Bu şərəfli yolu qət etmiş qəhrəmanlarımızın dediyi kimi də etdik, hər tövsiyəni, tapşırığı canla-başla yerinə yetirdik. Döyüş zamanı düşməni pərən-pərənə saldıq. Maraqlısı o idi ki, biz düşmənin fikirləşdiyinin tam əksini edirdik; qurduqları müdafiə istehkamları istiqamətində yox, onlara gözləmədikləri anda, gözləmədikləri yerdən zərbə endirirdik. Bu gün qazi adını qazanan, yaxud da şəhidlik zirvəsinə ucalan hər bir igidimizin tək amalı, qayəsi Vətən idi. Ərazi bütövlüyü təmin edilmiş azad Vətən! Heç bir itki də bizi ruhdan salmırdı. Hər dəfə şəhid xəbəri alanda qəlbimizdəki intiqam alovu daha da şölələnirdi. Ali Baş Komandanımızın da söylədiyi kimi, bu bizim haqq savaşımız idi və biz öz torpaqlarımız uğrunda döyüşürdük. Erməni əsgəri kimi təcavüzkar deyildik, torpağı uğrunda döyüşən əsgərlər, zabitlər idik. Biz bilirdik ki, düşmən əsgərinin gücü ancaq döyüş bölgəsindən uzaqda olan ərazilərimizə – Tərtərə, Bərdəyə raket yağışı yağdırıb dinc əhaliyə divan tutmağa çatar. Həmçinin biz onların bütün döyüş və müdafiə taktikalarını əzbər bilirdik. Ona görə də inamlı və əzmli idik. Baş Komandanımızın zəfər mujdələri isə bizi həddindən artıq ruhlandırırdı. Şükürlər olsun ki, bu mübarizədən də Azərbaycan Ordusu qalib çıxdı. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

***Çıxışın son dəqiqələri…***

Gənc, qəhrəmanın çıxışındakı son sözləri də qürurvericidir: “Bu qələbədə mənim də payımın olması böyük fəxarət hissidir. Qalib ordunun qalib zabiti olmaq çox qürurvericidir. Sevincliyəm ki, gələcəkdə övladlarıma, nəvələrimə Vətənimiz Azərbaycan haqqında nələrisə danışa biləcəyəm. Onlar bizimlə fəxr edəcəklər. Çünki düşməni əzə-əzə, “bu yolda öldü var, döndü yoxdur” deyə-deyə irəliləyən, son damla qanına qədər döyüşən igidlərimizin övladları da özləri kimi qəhrəman olmalıdır. Bu igidlər illərdir, gözləri Şuşaya doğru yol çəkən, qələbə xəbəri üçün səbirsizlənən, məğlub kimi gəzməyə məhkum olunmuş bir xalqın kimliyini, mənliyini özünə qaytardı. İndi qürurla, fəxrlə o yurda qayıtmağa haqqımız var! Yaşasın Azərbaycan Ordusu!

*Alqış səsləri bir anda bütün zalı bürüyür. Diqqətlə müşahidə etdikdə görürük ki, Əli Kərimovun sözlərində kimsə şəhid oğlunu tapır, kimisi qardaşını, kimisi ömür-gün yoldaşını tapır. Qürurverici söhbət yenə də bizi düşünməyə vadar edir. Bu, həqiqətən də, tarixi hadisədir. 44 günlük Vətən müharibəsi bir daha təsdiq etdi ki, Azərbaycan xalqı bütün ümummilli məsələlərdə birlik nümayiş etdirir. Birliyin, bərabərliyin, mübarizliyin daim olsun, əziz Azərbaycan xalqı. Sən hər zaman qalibsən!*

**Bülbül QULİYEVA**

## Naxçıvan teatrı I Beynəlxalq TÜRKSOY Teatr Festivalında iştirak edəcək



Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən I Beynəlxalq TÜRKSOY Teatr Festivalında iştirak edəcək. Yaradıcı heyət fransız yazıçısı Viktor Hüqonun “Edama məhkumun son günü” əsərinin motivləri əsasında səhnələşdirilən eyniadlı tamaşa ilə oktyabrın 31-də, saat 19$^{00}$-da Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində teatrsevərlərin qarşısına çıxıb.

Tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı Mir Qabil Əkbərov, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, xoreoqrafı Lamiyə Əliyevadır. Səhnə əsərində rolları Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev, Mehri Nəbiyeva və Məmməd Mehdiyev ifa edir.

Qeyd edək ki, oktyabrın 30-da teatrın yaradıcı heyəti eyniadlı tamaşanı Sumqayıt Dövlət Dram Teatrında da nümayiş etdirib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## İdmançımız Trabzon marafonunun ilk onluğunda



Trabzon Böyükşəhər Bələdiyyəsi tərəfindən Türkiyə Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə 43-cü Beynəlxalq Trabzon Yarı Marafonu təşkil edilib. Marafon çərçivəsində xalq qaçışı, uşaq qaçışı, 10 kilometr və 20 kilometr (yarı marafon) məsafələrə qaçış yarışları keçirilib.

Trabzondakı ənənəvi idman tədbirinə ikinci dəfə qatılan Naxçıvan idmançısı Əmrah Nağıyev 10 kilometr (10548 m) məsafə üzrə yarışıb. İdmançı finişədək 40 dəqiqə 40 saniyə vaxt sərf edib. Bu göstərici ilə 6-cı olan Əmrah iştirak etdiyi marafonlarda ikinci dəfə ümumi sıralamada onluğa düşməklə şəxsi rekordunu da yeniləyib. Belə ki, Əmrah 2019-cu il Bakı marafonunda 7-ci yerə sahib çıxmaqla yaş kateqoriyası xaricində ən yaxşı nəticəyə nail olmuşdu.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonunun Ələkli kənd sakini Abdullayev Ələkbər Məmməd oğlunun adına verilmiş JN-71$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Qurbanov Nadir Vilayət oğlunun adına olan JN-669 nömrəli, 10200088 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Arbatan kəndində yaşamış Əliyev Nadir Əziz oğlunun adına olan JN-9$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Güznüt kənd sakini Seyidova Tahirə Mirseyib qızının adına olan JN-549$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Fariz Əhmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 634